*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 56-60* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.2.56*

# İslam Səfərlinin poeziyasında peyzaj lirikası

**Afət Rəfiyeva**
Filologiya üzrə fəlsəfə doktoru
Sumqayıt Dövlət Universiteti
E-mail: afat.rafiyeva@sdu.edu.az

**Annotasiya.** Məqalədə görkəmli şair İslam Səfərlinin peyzaj lirikası araşdırılır. Onun “Batabat bulağı”, “Dağlar”, “Xəzərim”, “Abşeron” və başqa şeirlərini təhlil edən müəllif belə qənaətə gəlir ki, poetik ümumiləşdirmələr, insan və təbiət münasibəti şairin peyzaj lirikasının əsas xüsusiyyətlərini təşkil edir. İ.Səfərli peyzaj yaradarkən təkcə təbii obyekti təsvir etməklə kifayətlənmir, təbiəti bəzəyən insanların hərəkətlərini, vətən sevgisini də yüksək sənətkarlıqla tərənnüm edir. Təbiətsevər və şair İslam Səfərlinin poetik peyzaj nümunələri də onun bədii-fəlsəfi düşüncələrinin təcəssümü kimi diqqəti cəlb edir. Bu baxımdan şairin peyzaj lirikası orijinal ifadəli üslubu, emosional çalarları ilə seçilir.
**Açar sözlər:** poeziya, peyzaj, İslam Səfərli, obraz, poetik

**Məqalə tarixçəsi:** göndərilib – 03.10.2023; qəbul edilib – 17.10.2023

# Landscape lyrics in Islam Safarli’s poetry

**Afat Rafiyeva**
Doctor of Philosophy in Philology
Sumgait State University
E-mail: afat.rafiyeva@sdu.edu.az

**Abstract.** The article discusses the landscape lyrics of the prominent poet Islam Safarli. Analyzing his “Batabat Spring”, “Mountains”, “My Azerbaijan”, “My Khazar”, “Absheron” and other poems, the author comes to the conclusion that poetic generalizations, human and nature relations are the main features of the poet's landscape lyrics. When creating a landscape, I.Safarli is not satisfied with the description of any natural subject, he also glorifies the actions of people who beautify nature and love for the country with high artistry. The poetic landscapes of Islam Safarli, a nature lover and poet, also attract attention as the embodiment of his artistic and philosophical thoughts. In this regard, the poet's landscape lyrics are distinguished by their original expressive style and emotional shades.
**Keywords:** poetry, landscape, Islam Safarli, image, poetic

**Article history:** received – 03.10.2023; accepted − 17.10.2023

## Giriş / *Introduction*

Görkəmli şair-dramaturq İslam Səfərli müasir Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan sənətkar kimi XX əsr Azərbaycan ədəbi-mədəni mühitində silinməz izlər buraxmışdır. Onun poeziyası məzmunca rəngarəng olduğu kimi, forma etibarilə də zəngin və orijinaldır. Şairin şeirlərində vətən, onun təbii gözəllikləri, bu gözəlliklərə yeni-yeni rənglər qatan insanın daxili-mənəvi aləmi, xeyirxah əməlləri və s. poetik bir dillə təsvir və tərənnüm olunur. İ.Səfərlinin çoxşaxəli poeziyasının mühüm bir istiqamətini peyzaj lirikası təşkil edir. Məlumdur ki, peyzaj fransız sözü olub lüğəvi mənası yer, ölkə anlamını bildirir. Bədii ədəbiyyatda bu termin təbiətin təsviri, poetik mənzərənin əlvan çalarlarını əks etdirən anlayış kimi sənətkarın ifadə üsullarını kompozisiya elementlərindən biridir. “Azərbaycan ədəbiyyatında çöl, meşə, dağ, dərə, göl, çay, külək, bulud, torpaq, səma və s. haqqında yüzlərcə şeir yazılmışdır ki, onlar təbiətin özünəməxsus gözəlliklərini əks etdirir” [2, s.178].

## Əsas hissə / *Main Part*

Bir çox şarilərin yaradıcılığında olduğu kimi, İslam Səfərlinin də şeirlərində bu cür təsvirlər sırf təbiət gözəlliklərinin bədii görüntüləri ilə məhdudlaşmır. Şairin peyzaj lirikasında təbiət təsvirləri tükənməz sevginin poetik ifadəsinə çevrilib qurub-yaradan insanın mənəvi zənginliklərinin, qüdrət və əzəmətinin açılmasına xidmət edir.

Öncə qeyd edək ki, İ.Səfərlinin lirikasında müxtəlif təbiət predmetləri: dağ, çöl, bulaq, kəklik, çiçək, çəmən, ceyran, meşə, duman və s. məcazi anlamda daha geniş mənalar ifadə edir. Başqa sözlə, bu cür canlı və cansız təbiət varlıqları zahiri gözəllikləri ilə deyil, həm də şair təxəyyülünün bədiiləşdirdiyi mənalarla ədəbi-estetik gözəlliklərin təcəssümünə çevrilərək onun bədii-fəlsəfi düşüncələrini əks etdirir. “Azərbaycanım”, “Vətənim var”, “Odlar vətəni”, “Zirvə yolu” və digər şeirlərdə şair vətənin dilbər guşələrinin füsunkar gözəlliklərini nəğməkar bir səyyah kimi seyr edir, Mildən, Muğandan, Şirvandan, Naxçıvandan keçib bu gözəlliklərin bədii mənzərəsini Azərbaycan adlı diyarda yüksək qürur və sevgi duyğuları ilə ümumiləşdirir:

*Kürüm-Arazım qoşa çayımdır,*
*Azərbaycanım günüm, ayımdır.* [4, s.17]

Bu misralarla bitən “Azərbaycanım” adlı şeir sanki doğma vətənimizin bədii-coğrafi xəritəsini əks etdirir. “Dolaybadolay Şəki yolları”, “Quba bağları”, “şərqilər deyən gözəl Qarabağ”, “gəl, yaylaq gözəl, gəl, aran gözəl” və sair kimi poetik ifadələr bir tərəfdən şairin peyzaj yaratmaq sənətkarlığını əks etdirirsə, digər tərəfdən bu cür bədii lövhələrin fonunda onun vətən sevgisini, bu sevgini köksündə ləyaqətlə yaşadan lirik “mən”in incə və saf duyğularının təzahürü kimi oxucuya da sirayət edir, onu düşündürür. Məhz belə bir gözəl diyarın vətəndaşı olduğu üçün şair qürur hissi keçirir, dağ, Xəzər, günəş və digər təbiət obyektləri metaforik misraların axarında məna və məzmun tutumunu daha da genişləndirir:

*Bakı – şəhərim mənim,*
*Xəzər – bulağım mənim.*
*Dağlar – hünərim mənim,*
*Günəş bayrağım mənim,*
*Dünyada nə qəmim var.* [4, s.15]

İ.Səfərli təbiət aşiqi olduğu kimi, həm də təbiət şairidir. Başqa sözlə, yuxarıda qeyd etdiyimiz bədii-fəlsəfi düşüncələrlə təbiət lövhələri onun lirik mətnlərində poetik bir harmoniya təşkil edir. Biz bədii-fəlsəfi düşüncələr dedikdə daha geniş anlamları Azərbaycana, təbiətə və insana sevgini, təbiəti gözəlləşdirən insan əməllərini, insan-təbiət münasibətlərində Azərbaycan övladının mənəvi-əxlaqi xüsusiyyətlərini nəzərdə tuturuq. Ona görə də şairin peyzaj lirikasında Azərbaycanın bir çox guşələrinini təsvir və tərənnümünü görmək mümkündür. "Xəzərim", "Bərdə", "Batabat bulağı", "Səməni", "Mərəzə", "Masallı", "Suraxanı", "Laçın dağlarında", "Bilgəh bağları" və digər şeirlər bu baxımdan səciyyəvidir. "Bakı bir Bakıdır ki..." şeiri həcmcə bir qədər böyük olsa da, şair burada "gur səsli Bakının səhəri yuxusundan oyatması", "yaz nəfəsli insanların" əzəmət və qüdrəti, "sıx buruqlar meşəsi" kimi misra və ifadələrlə vətənimizin paytaxtının obrazını yaradır. Həm də bu obraz lakonik və xarakterik cizgilər vasitəsilə təsvir olunduğuna görə poetik ümumiləşdirmələr səviyyəsində mənalı və emosional təsir bağışlayır:

*Yaşıl şam meşələri*
*Park üstündən uzanır,*
*Boz təpəli Bayıladək.*
*Dəniz buruqlarını*
*Yarıb keçən küləklər*
*Səslənir bir layla tək.* [4, s.19]

Silsilə təşbeh və epitetlər, bədii deyimlər və metaforalar, ritorik sual və xitablar Bakının obrazını yeni çalarlarla zənginləşdirir. "Yaşıl şam meşələri ilə" "sıx buruqlar meşəsinin" yaratdığı poetik harmoniya şairin sənətkarlıq məharətini əks etdirməklə bərabər, həm də Bakıya xas olan bir mənzərənin özünəməxsusluğunu nümayiş etdirir. Bu cəhətdən onun yaradıcılığını araşdıran ədəbiyyatşünas alimlər doğru olaraq qeyd edirlər ki, "poetik ümumiləşdirmə bacarığı İ.Səfərli yaradıcılığının əsas məziyyətlərindən biridir. Onun lirik əsərlərində xəlqilik, el üslubu, oynaq və axıcı ifadə tərzi var. İ.Səfərli poeziyasını küll halında "insan və təbiət haqqında nəğmə" adlandıranlar haqlıdırlar. Şair insanı və təbiəti dərindən duyduğu üçün öz hiss və duyğularını, müqəddəs arzularını müxtəlif formalarla oxucularına çatdırmağı bacardığı üçün buna nail ola bilmişdir" [1, s. 359].

Yuxarıda haqqında bəhs etdiyimiz "Bakı bir Bakıdır ki" şeirində bu xüsusiyyətlər qabarıq şəkildə özünü büruzə verir. Şeiri yekunlaşdırarkən müəllif insan və təbiət münasibətlərinin gözəlliklərindən doğan sevinc dolu hisslərini dilə gətirir. Həssas oxucunun "tərənnüm eylədiyin bu duyğular de, nədir?" sualına cavab olaraq deyir:

*Bu müdrik xalqımızın,*
*Ölməz əməllərindən,*
*Paytaxtımda yaranmış*
*Kiçik bir nişanədir.* [4, s.23]

Şairin peyzaj lirikasından söhbət açarkən "Batabat bulağı" şeirini ayrıca qeyd etmək lazımdır. Beşlik formasında və on birlik ölçüsündə yazılmış bu şeir duyğu və düşüncələrin səmimiliyi, poetik lövhələrin mükəmməlliyi, ən başlıcası isə təbiəti dərindən duyan, onu düşünən və sevən insanın daxili aləmi, kövrək hisslərinin dolğunluğu ilə xoş təsir bağışlayır. Müasir Azərbaycan poeziyasında peyzaj lirikasından söhbət düşəndə ən yaxşı əsərlər sırasında bu şeirin adını cəsarətlə çəkmək olar. Bu baxımdan tənqidçi ədəbiyyatşünas Vaqif Yusifli İ.Səfərlinin "Seçilmiş əsərləri"nə yazdığı "Ön söz"də şairin Naxçıvan torpağının gözəlliklərinin tərənnümünə həsr olunmuş "Tanış gözlər", "Qızlar bulağı", "İki Culfa" və s. şeirləri ilə yanaşı, "Batabat bulağı"nı xüsusi olaraq yada salır. Beş bənddən ibarət olan bu şeirdə şair Batabat bulağının təsvir və tərənnümünü təkcə bulaqla məhdud-

laşdırmır. Batabatın şırıltı ilə axdığı yerlərin bədii-coğrafi xəritəsini rəssam dəqiqliyi ilə çəkir. Burada hər bir təbiət predmeti: dağ, kəklik, qaya, cığır, göl, çiçək və sair elə poetik səviyyəyə qaldırılır, bir-biri ilə elə qaynayıb-qarışır ki, bədii və canlı təbiət mənzərəsinin yaddançıxmaz modelinə çevrilir:

*“Qonaqgörməz” düşmənidir təkliyin,*
*Ayaqları xınalıdır kəkliyin.*
*Göl üstdəki güllüyün, çiçəkliyin*
*Xoş ətrinə bata-bata gəlmişəm,*
*Mərcan gözlü Batabata gəlmişəm.*

*Dağ cığırlı, hər tərəfim duman, çən,*
*Boz qayadan cüyür ürkdü qəflətən.*
*Tüfəngimi sinəm üstə basım mən –*
*Arxasınca ata-ata gəlmişəm,*
*Mərcan gözlü Batabata gəlmişəm.* [4, s.71]

Ümumiyyətlə, bütün dövrlərdə təbiət ədəbi-estetik mahiyyəti ilə şifahi və yazılı ədəbiyyatın qaynağı olmuşdur. İnsan təbiətlə təmasda özünün mənəvi-əxlaqi dəyərlərini yaratmış, onu qoruyub nəsildən-nəslə ötürmüşdür. Tanınmış ədəbiyyatşünas Yaşar Qarayev təbiətin müqəddəsliyindən, onun poeziyada inikasından bəhs edərkən yazır: “Müdrik babalarımızın əxlaqı ona görə gözəldir ki, təbiətin əxlaqını ifadə edir. Şeirimiz babalarımızda insanın təbiətlə bağlılığını, insanla dünya arasında ahəngin gözəlliyini tərənnüm edir. Təbiətin özünün simasında da əslində babaların ruhu, sağlamlığı, mərdliyi ifadə olunur” [3, s.70].

Təbiətə bu cür həssas münasibəti şairin “Xəzərim”, “Naxçıvan yadigarı”, “Bizim dağlarda” şeirlərində müştərək xüsusiyyət kimi müşahidə etmək mümkündür.

“Xəzər” dənizi haqqında çoxlu şeirlər yazılmış, mahnılar bəstələnmişdir. İ.Səfərli “Xəzərim” şeirində heç kəsi təkrar etmədən, özünə xas lirik ovqat və incəliklə poetik lövhələr yaradır:

*Sinən bir ağ gümüşdü, gümüşdü,*
*Gözüm hüsnünə düşdü, nə düşdü.*
*Sahilində işıqlar qızıldı,*
*Yel dəydi, göy köynəyin sızıldı,*
*Suların çin-çin oldu, Xəzərim,*
*Ləpən göyərçin oldu, Xəzərim…*

*Söylə görüm, ay dəniz,*
*Çimibmi göy sinəndə Ay, dəniz?*
*Ulduzlar xalınmıdır, gecələr,*
*Dalğalar yalınmıdır, gecələr?*
*Saf qoynuna düşübdür güzərim,*
*Xəzərim, Xəzərim, ay Xəzərim!..* [4, s.200]

Şair bu cür bədii mənzərələr yaradarkən “dodaqların duzlu”, “hər ləpən qağayı”, “göylərin ulduzlu” və digər obrazlı ifadələrlə Xəzərə müraciət edərək sanki onunla danışır.

**Nəticə / *Conclusion***

Bu cür emosional təsvir və tərənnüm, ana təbiətə humanist münasibət İslam Səfərlinin təbiət şeirlərinin lirik-fəlsəfi ruhunu müəyyənləşdirir.

**Ədəbiyyat / *References***


1. Abdullayev, C. Müasir Azərbaycan ədəbiyyatı (Ali məktəb üçün dərslik). I cild. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2007. – 504 s.
2. Əsgərli, Z. Poetika: izahlı sözlük. – Bakı: Elm, – 2014. – 262 s.
3. Qarayev, Y. Poeziya və nəsr. – Bakı: Yazıçı, – 1979. – 198 s.
4. Səfərli, İ. Seçilmiş əsərləri. – Bakı: Lider, – 2005. – 224 s.


## Пейзажная лирика в поэзии Ислама Сафарли


**Афет Рафиева**
Доктор философии в филологии
Сумгаитский государственный университет
E-mail: afat.rafiyeva@sdu.edu.az



**Резюме.** В статье рассматривается пейзажная лирика выдающегося поэта Ислама Сафарли. Анализируя его «Батабатский родник», «Горы», «Мой Азербайджан», «Мой Хазар», «Абшерон» и другие стихотворения, автор приходит к выводу, что поэтические обобщения, отношения человека и природы являются основными чертами пейзажной лирики поэта. Создавая пейзаж, И.Сафарли не довольствуется описанием какого-либо природного предмета, он также с высоким артистизмом прославляет действия людей, украшающих природу и любовь к стране. Поэтические пейзажи любителя природы и поэта Ислама Сафарли также привлекают внимание как воплощение его художественно-философских мыслей. В связи с этим, пейзажная лирика поэта отличается оригинальным выразительным стилем и эмоциональными оттенками.


**Ключевые слова:** поэзия, пейзаж, Ислам Сафарли, образ, поэтический